# Yeni nəşrlər

**Validə Küskün Azərbaycanın dilbər guşəsi sayılan, loğman təbiəti ilə insanlarda xoş ovqat yaradan, sazlı-sözlü Tovuz rayonunda dünyaya göz açıb. Erkən yaşlarından poeziya vurğunu olub, görüb müşahidə etdiklərini ürək süzgəcindən keçirərək poetik ilhamla qələmə alıb, misralar şeirə çevrilib.**

İlk şeirlər kitabı nəşr olunanda Validə xanımın sevinci köksünə sığmayıb, özünü göylərin yeddi qatında hiss edib. O, mütaliəni çox sevir, el şairlərinin, aşıqların yaradıcılığına böyük maraq göstərir, həmişə axtarışda olur, yeni-yeni şeirlərini qələmə alır.

Bu günlərdə şair, "Qızıl Qələm" mükafatı laureatı Validə Küskünün "Göz yaşları verən dünya" adlı yeni şeirlər kitabı "Elm və təhsil" nəşriyyatında nəfis tərtibatda nəşr olunmuşdur.

Kitabda Validə Küskünün övlad həsrəti, ana ürəyinin təlatümlü hayqırtıları, dünyanın vəfasızlığına təəssüf notları, insan taleyinin, insan ömrünün arzu və istəklərinin həyata keçməsindən bəhs edən şeirlər yer tutur.

Kitabın müəllifi, oxucuların sevimlisinə çevrilən Validə Küskün redaksiyamızın qonağı oldu. Hiss olunurdu ki, o, sidq ürəklə şeirə, poeziyaya bağlıdır, Vətəni, doğma Azərbaycanı ürəkdən sevir, tez-tez mavi Xəzərin nəğməli sahillərini seyr edir, pıçıldaşan ləpələr sanki onunla şirin-şirin söhbətləşir.

"Göz yaşları verən dünya" kitabı bir ananın övlad itkisindən doğan dərdli-qəmli hıçqırtılardan, göyüm-göyüm göynəyən ürək çırpıntılarından yaranmışdır. Övladını vaxtsız itirən şair Validə Küskün şeirlərini sanki ürəyinin qanı ilə yazmışdır. Dərdləri ilə başbaşa qalan şair fani dünya ilə heç cür barışa bilmir.

Şair Validə Küskünü yaşadan poetik yaradıcılığı, qəlbini göynədən Vətənin ağrıları, həm də şəxsi kədəridir. O çox gəzir, bulaq üstə gedir, təbiətin seyrinə çıxır, dağların-dərələrin çəmən-çiçəklərindən ilham alır, könlü açılır, düşüncələri misralara çevrilir. Yenə öz dünyasına qapılır, ondan heç vəchlə qopa, ayrıla bilmir. Şairin toxdaqlığı da sözü ilə dərdlərinə məlhəm olub, onunla ovunmasındadır. Şeirlərinin birində şair üzünü dağlara tutur:

*Ay çənli dağlar,*
*burada bir küskün ana ağlar,*
*Gizli-gizli əlləri qoynunda ağlar.*
*Bilmirəm bir nələr gəldi başıma*
*Öz-özündən küsən mənəm, a dağlar.*




Şair Validə Küskünün poeziyasını gözəlləşdirən, poetik fikrin daha mənalı və canlı ifadə olunmasına rəvac verən sərbəst vəzndən də ustalıqla istifadə etməyi bacarmasıdır.

İnsana, övlada, dostlara, məhəbbətin tərənnümünə həsr olunmuş şeirlərində təmizlik, paklıq insanı yüksəldən, onu unutmayan, yoxluğundan mütəəssir olan ana ürəyinin çırpıntılarını eşidirik.

Validə Küskünün "Göz yaşları verən dünya" şeirlər kitabını müəllifin yaradıcılıq uğuru saymaq olar. İnanırıq ki, o yeni kitabları ilə oxucuların qəlbində özünə layiqli yer tapacaqdır.

**Qədir ASLAN,**
**"Respublika".**

Respublika.- 2018.- 22 iyul.- S. 4.